# Qacar dövlətinin süqutu və Palanilər



**Elşən Mirişli**
*Gəncə şəhəri, tarixçi*

**I Yazı**

*1906-cı ilin axırlarında Qacar şahı Müzəffərəddin şahın xəstəliyi gücləndi.Onun ölümü gözlənirdi.Tehranın hakim dairələri vəliəhd Məhəmmədəli Mirzəni Tehrana çağırmaqla hələ Müzəffərəddin şahın sağlığında Konstitusiyanın təsdiq edilməsinin qarşısını almağa çalışırdılar.Vəliəhd Məhəmmədəli Mirzənin Tehrana çağırılması haqqında teleqram noyabrın 17 (30)-da Təbrizdə alındı.O,dekabrın 16-da Tehrana çatdı.Hakimiyyətin Məhəmmədəliyə verilməsi haqqında fərmanı Müzəffərəddin şah dekabrın 20-də imzaladı.*

*Saray dairələri və məşrutə tərəfdarları arasında gərgin mübarizə şəraitində Konstitusiyanın tərtibi başa çatdırıldı. Yeni anayasa Müzəffərəddin şah tərəfindən 1906-cı il dekabrın 30-da təsdiq edildi.Qacar dövlətində Birinci Məclisin çağırılması dövrün ən mühüm hadisələrindən biri idi.*

Məhəmmədəli Mirzə Təbrizdən Tehrana çağırıldıqdan sonra Azərbaycanın hakimi-baş valisi vəzifəsinə,keçmiş ədliyyə naziri Nizamülmülk təyin edildi. O,dekabrın 19-da Təbrizə gəldi.

Qacarların İrandakı hakimiyyəti dövründə həmişə Güney Azərbaycanı İran taxtının vəliəhdi idarə etmişdi.Daimi ənənənin pozulmasının və Qacar sülaləsindən deyil,məhz Nizamülmülkün Cənubi Azərbaycana baş vali təyin edilməsi Azərbaycan türklərinin kəskin etirazlarına səbəb oldu.

## Məhəmmədəli Şah Qacar (21 iyun 1872,Təbriz, Qacar dövləti-5 aprel 1925,San-Remo, İtaliya krallığı)

Məhəmmədəli Mirzə Müzəffərəddin şah oğlu 1872-ci ildə Təbriz şəhərində anadan olmuşdu.Anası Ümmül Xaqan dövrünün məşhur əxlaqsız həyat qadınlarından biri idi.Məhəmmədəli Mirzə Azərbaycan və Təbriz valisi idi.Anasının əxlaqsızlığı onun özünə də az təsir etməmişdi.O,hələ Təbrizdə vəliəhd olduğu vaxt cinayətlər və əxlaqsızlıqlar etmişdi.Onun bütün bu cinayətləri onu Azərbaycanda sevilməyən və nifrət edilən şəxsə çevirmişdi.Cinayətlərə son qoymaq üçün təbrizlilər üsyana da əl atmışdılar.Məhəmmədəli şah atası Müzəffərəddin şahın vəfatından sonra, 3 yanvar 1907-ci ildə Qacar taxtına əyləşdi.Onun şahlığı 16 iyul 1909-cu ilə qədər davam etmişdi.O,qarşısına inqilabı yatırmaq,əncumən və fədai dəstələrini ləğv etmək məqsədini qoyur.

Məclis tərəfindən verilən tələbləri şah 1907-ci il fevralın 11-də qəbul etməyə məcbur oldu. Qacar dövlətinin təsir dairələrinə bölünməsinə dair 1907-ci il ingilis-rus sazişinin bağlanması isə Məhəmmədəli şah Qacarın dövlət içində nüfuzunu heçə endirdi.Buna cavab olaraq 1907-ci il fevralın 8-də Təbrizdə üsyan baş verdi.Baş vali Nizamülmülk əncümənin həyata keçirdiyi tədbirlərə müqavimət göstərmək istədiyinə görə aprelin 19-da ü şəhərdən qovuldu və əncümən bütün hakimiyyəti öz əlinə cəmləşdirdi.Yalnız məclisin işə qarışması və xahişi ilə aprelin 27-də Təbrizə-öz vəzifəsinə qaytarılsa da,onun hakimiyyəti formal idi.

## Rza Palani və Rus Kazak Briqadası

Məhəmmədəli şah Qacarın inqilabi hərəkatı məhv etmək üçün hərbi qüvvəyə əl atması Təbriz üsyançılarını yenidən silaha sarılmağa məcbur etdi. Üsyançıları silaha sarılmağa məcbur edən əsas səbəblərdən biri Rus Kazak Briqadası idi.Bu briqada Çar Rusiyası Baş Qərərgahına tabe olan Rusiya imperatorluğu hərbi kəşfiyyatı tərəfindən yaradılmış hərbi struktur idi.1920-ci ilə qədər bu briqadanın bütün komandanları rus zabitləri olmuşlar.Bu briqadanın əsgərlərindən biri 26 il bu rus hərbi birliyinin əsgəri olmuş Rza Palani (Pəhləvi) idi.15 mart 1878-ci ildə Mazandaranda Mazan Abbas Əlinin ailəsində doğulmuşdu.Tarix saxtalaşdırılaraq guya onun atasının hərbçi olduğu idia edilir.Əslində Mazan Abbas Əli Qacarların mehtəri olmuşdu.Rza xan orduya şah mehtərinin oğlu kimi alınmışdı.Rza xanın anası Təcəlmülk Ayrımlı rus kazak briqadasının Azərbaycan Türkü olan hərbçisi Teymur xan Ayrımlının qızı idi.Rza Palani 1894-cü ildən 1920-ci ilədək bu hərbi birliyin əsgəri olmuşdu.Soyadı soradan saxtalaşdırılaraq Palani soyadını zadəgan soyadına çevirmək üçün Pəhləviyə çevrmişdi.Guya Ari irqindən gəlir.Əslində axurdan gələn sülalədi. Milliyətcə Mazan olan Qacar mehtərlərinin nəslindən gəlir.Rus Kazak Briqadasının müasir dövrdə bənzəri Vaqner ordusudu.




**Rza Palaninin (Pəhləvi) başçılıq etdiyi kazak silahlı qüvvələri 1921-ci ildə ingilislərin köməyi ilə Qacar hakimiyyətinə qarşı hərbi çevriliş edir.1921-ci il fevralın 22-də Azərbaycanın Qəzvin şəhərində ingilis ordusunun Qacar dövlətindəki baş komandanı,general Edmund Ayronsaydın təşkilatçılığı və təlimatı ilə Rza xan Palaninin 2500 nəfərlik kazak diviziyası Tehrana daxil oldu və paytaxtı ələ keçirdi.Çevrilişdən sonra məcburiyyət qarşısında qalan Əhməd şah Qacar britanyayönlü Seyid Ziya Təbatəbaini Baş nazir,Rza xanı isə hərbi nazir təyin etdi...**

## Məşrutə inqilabı

*Məhəmmədəli şah Qacarın idarəçilik qabiliyyətinin olmaması Qacar dövlətində dövlətin gələcəyini qeyri-müəyyən edirdi.İkinci qeyri-müəyyənlik yaradan amil Qacar dövlətinin Türk dilini dövlət dili etməməsi milli dövlətə çevrilməməsi idi.Bütün bunlara baxmayaraq Azərbaycan Türkcəsi saray və ordu dili idi.Üçüncü uğursuzluq Cibal Azərbaycanı adlanan Azərbaycan ərazisinin Həmədan,Mərkəzi,Kum, Elburz,Tehran bölgəsinin Təbrizə tabe olan Azərbaycan əyaləti ilə savaş halında olması idi.Azərbaycan Türklərinin birliyinin parçalanması dövlətin süqutunu sürətləndirən əsas şərtlərdən biri idi.*

Tehranda Məhəmmədəli şah Qacar tərəfindən 1908-ci il iyun ayının 23-də məclisin topa tutulması haqqında xəbər Təbrizə çatdıqdan sonra əhali arasında ruh düşkünlüyü yarandı.Yalnız "Mərkəzi qeybi",Səttarxan və Bağırxanın başçılıq etdikləri fədai qüvvələri mübarizəni davam etdirdilər.

Bu günlər Təbrizdə olan 12 böyük məhəllədən 11-i təslim oldu,yalnız Səttarxan başda olmaqla Əmirəqiz müqaviməti davam etdirirdi.Üsyançıların şah ordusunu məğlub etməsi nəticəsində üsyan Qacar dövlətinin digər əyalətlərinə də yayıldı.Belə bir şəraitdə şah konstitusiyanı bərpa etməyə və məclisin çağırılmasını vəd etməyə məcbur olur.1907-1911-ci illər Təbriz inqilab mərkəzi olur. "Əncümən","Müsavat" və "Təbriz" kimi demokratik yönlü qəzetlər nəşr olunmağa başlanır.Məhəmmədəli şah Qacardan xoşu gəlməyənlər,anasının adı ilə fahişə Ümmül Xaqan oğlu çağırırlar.Lakin artıq 1907-ci ilin dekabrında şah rejimi yenidən inqilabı boğmağa cəhd edir.Buna cavab olaraq,Azərbaycan əncüməni Məhəmmədəli şahın taxtdan devrilməsini elan edir.1908-ci ilin may-iyun aylarında şah inqilabı yatırmaq məqsədi ilə xarici ölkələrin hərbi qüvvələrindən istifadə etməli olur.Həmin ilin iyunun 23-də Təbrizdə yerləşdirilmiş rus kazak briqadası yerli əhaliyə qarşı cəza tədbirləri görməyə başlayır.Eyni zamanda şah ordusu da Təbrizə yürüş edir.Yerli inqilabi qüvvələrə Səttar xan və Bağır xan rəhbərlik edirdi.Onların başçılıq etdiyi hərbi birliklər 1908-ci ilin iyun ayında şah ordusu üzərində qələbə çaldı.Həmin ildə şah ordusu Təbrizi ələ keçirmək üçün iki dəfə cəhd etdi.1909-cu iln yanvarında şah ordusu dördüncü dəfə Təbrizi mühasirəyə aldı.Məhəmmədəli şaha Rusiya və Britaniya imperiyaları hərbi və maliyyə yardımı göstərirdilər.Lakin bu yardımlar istənilən nəticəni vermədi.Hadisələrin bu cür gedişindən qəzəblənən Rusiya imperatorluğu Güney Azərbaycana hərbi müdaxilə etdi.Azərbaycan Əncüməni ordusu ilə savaşlardan sonra 1909-cu il aprelin 29-da Rusiya İmperatorluğu ordusu Təbrizi ələ keçirə bildi.1909-cu ilin iyulun 16-da Məhəmmədəli şah Qacar taxtdan devrildi.Səttar xan və Bağırxan Qacar dövlətinə sarsıdıcı zərbə endirmiş və dövlətin süqutunu sürətləndirmişdilər.

## İkinci rus hərbi müdaxiləsi

*Çar Rusiyası Güney Azərbaycanda hərəkatı yatırmaq üçün Qacar dövlətinə ikinci dəfə silahlı hərbi müdaxilə etdi.1911-ci ilin dekabrın 7-də Azərbaycan türkləri ilə rus ordusu arasında ilk döyüş oldu.Dekabrın 8-dən top atəşləri ilə qanlı döyüşlər davam etdi.Bir həftə ərzində,dekabrın 15-dək qanlı döyüşlər getdi.Eyni zamanda,rus qoşunları ilə qanlı savaşlar Ərdəbildə,Xoyda, Urmiyada, Rəştdə, Əzəlidə-bütün Azərbaycan ərazisində gedirdi.İnqilabi orduya Səttar xan və Bağırxan Tehrana getdikdən sonra Məşədi Məhəmmədəlixan və Hüseynxan Fişəngçi və başqaları başçılıq edirdi. Rus ordusunun məğlubiyyətindən əlavə olaraq göndərilən yeni qoşun hissələri xilas etdi.Dekabrın 15-də Azərbaycan Türkləri tam məğlub edildilər.Azərbaycan türklərinin ordularının qalıqları Səidülmülkün başçılığı başçılığı ilə 500 –dən çox mücahid Türkiyə ərazisinə keçdi. Ruslar Təbrizdə 80 nəfərə qədər Azərbaycan türkünü dara çəkdilər. "Dara çəkilənlər içərisində ruhani Siqətülislam, Şeyx Səlim və Sadiqülmülk, Əli Müsyönün oğlu 20 yaşlı Həsən,16 yaşlı oğlu Qədir və başqaları vardı.Hesablamalara görə rusların fədailərə divanı zamanı 1200 insan qətlə yetirilmişdir.*

1910-cu ildə Səttarxan və Bağırxan Qacar şahı Əhməd xan Qacarın dəvəti ilə Tehrana gəldi. 1910-cu il avqustun 7-də hökumət qoşunları Səttarxanın fədai dəstəsini tərksilah etdilər.Hər iki tərəfdən 60 nəfər öldü.Döyüşdə Səttarxan qıçından ağır yaralandı və uzun sürən xəstəlikdən sonra vəfat etdi.

## Əhməd şah Qacar

Əhməd şah Qacar Məhəmmədəli şah oğlu 1897-ci ildə Təbriz şəhərində doğulmuşdu.Mükəmməl saray təhsili almışdı.Sultan Əhməd Mirzə Qacar 1909-cu il 16 iyulda atasının könüllü surətdə şahlıqdan əl çəkməsindən sonra taxta əyləşdi.1909-cu ildə konstitusiyanı yenidən bərpa etdi.

Hələ 1923-cü ildə Türkiyə Cumhuriyyəti elan edildikdən bir neçə ay sonra Türkiyə Cumhuriyyəti Qacar hökmdarı Əhməd şah tərəfindən tanınmışdı.

15 dekabr 1925-ci ildə Rza xan Palani (Pəhləvi) tərəfindən şahlıqdan devrilib.1930-cu ildə vəfat etmişdi.

## Rza Palaninin Qacar dövlətini devirməsi

Rza Palaninin (Pəhləvi) başçılıq etdiyi kazak silahlı qüvvələri 1921-ci ildə ingilislərin köməyi ilə Qacar hakimiyyətinə qarşı hərbi çevriliş edir.1921-ci il fevralın 22-də Azərbaycanın Qəzvin şəhərində ingilis ordusunun Qacar dövlətindəki baş komandanı,general Edmund Ayronsaydın təşkilatçılığı və təlimatı ilə Rza xan Palaninin 2500 nəfərlik kazak diviziyası Tehrana daxil oldu və paytaxtı ələ keçirdi.Çevrilişdən sonra məcburiyyət qarşısında qalan Əhməd şah Qacar britanyayönlü Seyid Ziya Təbatəbaini Baş nazir,Rza xanı isə hərbi nazir təyin etdi.Təbatəbainin hökumət kabineti 3 aydan çox yaşamadı və bundan sonra başqa bir ingilisperəst Əhməd Qəvamın rəhbərliyi ilə ikinci hökumət kabineti quruldu.Əhməd Qəvam hökuməti də bir neçə ay davam etdi və bundan sonra hökumət Müşiriddövlə kabinetinə tapşırıldı.

1921-ci ildə hərbi nazir,1923-cü ildə Baş nazir olan Rza Pəhləvi (Palani) "xan" titulu ilə Qacar hakimiyyətini qəsb etdi.15 dekabr 1925-ci ildə Müəssislər Məclisinin 257 üzvü lehinə,3 üzvü bitərəf olmaqla Rza xan Palani şah seçildi.Qacar hakimiyyəti dövründə qəbul edilmiş,Konstitusiya dəyişdirildi və "Qacar Şahı" ifadəsi əvəzinə "Pəhləvi Şahı" ifadəsi yazıldı.Beləliklə,Rza şah Palani (Pəhləvi) 1926-cı il aprelin 25-də 7 yaşlı oğlu Məhəmməd Rzanın iştirakı ilə şahlıq tacını başına qoyaraq rəsmən şah elan edildi.

*Böyük Turan məmləkətində nüfuzun üçdə ikisini və ən fəal qiymətlisini təşkil edən türklər acınacaqlı və faciəli vəziyyətə düşdülər.Farsların Turan qövmlərinə qarşı bəslədikləri düşmənçilik və ədavət indi bunlara yönəldilmişdir.1785-1925 –ci illərdə mövcud olmuş Qacar Dövlətinə son qoyuldu.Bu Türk dövlətini tarix səhnəsindən silən uydurma tarix ilə bunu əsaslandırmağa çalışan Böyük Britaniya generalı marşal Edmund Uilyam Ayronsayd (1880-1959) idi.O,Böyük Britaniyanın İmperiya Baş Ştabına rəhbərlik etmişdi.Rza Palanini hakimiyyətə gətirən Pəhləvi sülaləsinin və uydurma İran tarixinin baş yazan və yaradıcısı bu şəxsdi.Bu günki İran bu şəxsin xəstə təxəyülünün uydurmalarının nəticəsində yaranmışdı.*

(ardı var)